***

İlahi, bu baxan kimdi?
balamın canından baxır.
Elə bil gecə yarısı
ağ sübhün danından baxır.

Ölmədi ki, şəhid oldu...
Adı dilimdə vird oldu.
Öz qanına şahid oldu,
indi öz qanından baxır.

...Getdi dönərmi dönməzmi?
...Susdu dinərmi dinməzmi?
...Bir də enərmi enməzmi?
Qılıncı qınından baxır.

...Tilsimə bax, əyana bax,
göy üzündən o yana bax.
Başını qaldır ONA bax,
Allahın yanından baxır.

***

Mən onda şair tək doğulmamışdım...
Onda daş dövrüydü, daşıydı hər şey.
...yaza az qalırdı— o güllü yaza!
Yaxşı yadımdadı, qışıydı hər şey.

...Zati-alilərdi yar yarası da
yaradan yaracan işində idi.
...Mən onda şair tək
doğulmamışdım
amma doğulmağın peşində idim.

Şairin nə işi doğulmasa, bax...
Beləydi, özgə cür “qaldı” yoxuydu.
Amma doğulmağa yer gərək idi...
Onda ulduzların altı yoxuydu.

...Onda ulduzların altı yoxuydu!
Anam doğacaqdı sonradan məni.
...Eh, şair anası olmalıydısa,
ulduz doğmalıydı sonra da məni.

***

Gecələr qara güzgüdü,
gözəl nə qaradan özgə?
Ay baxır, ulduzlar baxır—
nə baxır aradan özgə?

...gecənin qaşları çatma,
nə yuxulu gözləri var.
Gecədən keçən sözlərin
öpüləsi izləri var.

...Məni də güllələdilər
bu gecənin ortasında.
Mənəm, gecədi—qalmışıq
bu küçənin ortasında.

...şehləyir səhərə qədər
şairlər—gülə sığanlar.
Boş əlimi sıxanlardı
alnıma güllə sıxanlar..



**Paşa Talıblı**